**UOT 82-31**
**47. 82. 31. Romanlar, povestlər**
**(böyük formalar)**

# SƏNƏDLİ NƏSRDƏ İDEYA, DİL VƏ ÜSLUB MƏSƏLƏLƏRİ
## (M.Orucun " Son dayanacaqlardan biri " povesti əsasında)

**İ.S.DADAŞOVA**
***Bakı Dövlət Universiteti***
***Dadashova.ilaha@mail.ru***

*Məqalədə Azərbaycan ədəbiyyatında müstəqillik dövründə qələmə alınmış M.Orucun "Son dayanacaqlardan biri" adlı sənədli povesti tədqiqata cəlb olunmuşdur. Müəllifin həyat hekayəsini paylaşarkən konkret faktlara istinad etməsi, tarixə sədaqəti bizə bu əsərdən mənbə kimi istifadə etməyə əsas verdi. Bu sənədli əsər yaxın keçmişi öyrənmək, dünəni xatırlamaq baxımından əhəmiyyətlidir. Dövrün müəyyən qədər panoramını yaratmaqla bərabər, əsərin insanı məsuliyyətini dərk etməyə səsləyən ideyası, dil-üslub xüsusiyyətləri də diqqəti cəlb edir. Müəllifin torpağa bağlılığı əsərin ideyasnın, məsuliyyəti isə onun xarakterinin açılmasına kömək edir.*

**Açar sözlər:** insan, mübarizə, torpaq, səmimiyyət, dil, üslub

Ədəbiyyat varlığın inikası olsa da, əsas tədqiqat obyekti insandır. Odur ki, qəhrəmanın arzusu, yaratdığları, qarşılaşdığı problemlər, mübarizə dolu həyatı, mövcudiyyətə münasibəti yazıçını düşündürür. O, öz həyatından bəhs edərkən də cəmiyyəti düşünür, onunla eyni qədəri yaşayan, yaşamın müxtəlif mərhələlərində həyatına daxil olan insanların ömür yoluna işıq salır. İlk növbədə, dövrün ictimai-siyasi mənzərəsini yaratmaqla tarixə xidmət göstərmiş olur. Yaradıcılıq eşqi onu axtarışlara sövq etdiyi məqamlarda suallarının cavabını tapmaq üçün torpaqla ünsiyyətə ehtiyac duyur, təbiətə üz tutur. Qeyd etdiyimiz sonuncu faktla əlaqədar olaraq ədəbiyyatımızda bir çox sənət nümunələri yaranmışdır. Təbiət insanın qəlbi ilə dialoquna əlverişli şərait yaradan, yeni mövzu üçün material verən, eyni zamanda onu ilhamlandıran əfsanəvi məkandır. Bu məkan ona düşüncələrini paylaşmağa meydan verir. Sehrində insan öz daxili aynasına boylanır, axtardığı sualların cavabını tapır. "Hər şeydən əvvəl, bunu qeyd etmək lazımdır ki, təbiət insanın mövcudluğunun təbii şəraiti, onun fəaliyyəti üçün məkan etibarilə meydan rolunu oynayır" (1, 116).

Məmməd Orucun müstəqillik dövründə qələmə aldığı "Son dayanacaqlardan biri" sənədli povesti məhz belə əsərlərdəndir. Müəllif konkret faktlara istinadən həyat hekayəsinin on ayının mənzərəsini yaratdığı bu əsərində ilk növbədə, oxucusu ilə düşüncələrini paylaşır. Biz bu faktı əksər sənədli, sənədli-bioqrafik nəsr nümunələrində görürük. Bu onların spesifik xüsusiyyətlərindən biridir. Yazıçı məhz bu tip sənət nümunələri vasitəsilə hər zaman müsbət ideallar aşılamaq istədiyi, taleyi üçün narahat olduğu oxucusuna müraciət edir, oxucu da müəllif səmimiyyətini hiss edir, duyur və bu amil ona daha inandırıcı təsir bağışladığından effekti də gözəl olur.

"Son dayanacaqlardan biri" sənədli povestində müəllif elə ilk sətirlərdən oxucu qarşısında hesabat verir. Nəyi, nə üçün?, niyə? etdiyini bildirərək oxucunu düşündürən sualları cavablandırmış olur: "Doxsan ikinci ilin yanvar ayında Bakının günbəgün əndazədən çıxan ədəbi və eləcə də, ictimai-siyasi həyatında özümə yer tapa bilməyib, bu şəhəri tərk edəndə və kəndə gedəndə bir məqsədim var idi: əkin-biçinlə məşğul olmaq, məni çoxdan sirli-sehrli cazibəylə özünə çəkən Beyləqanda çıraq yandırmaq!" (5, 87) .

Müəllifin sözlərindən məlum olduğu kimi, onu sıxan mühitdən xilas olmaq üçün o, təbiətə, torpaqla təmasa ehtiyac duyur. Bəlkə də, bu, torpağın insan üçün müqəddəs dəyər olduğu ilə əlaqədardır. Bəlkə də, çəkdiyi zəhmətin qarşılığını aldığındandır ki, insan ona bir bu qədər bağlıdır.

Yazıçı Bakı Dövlət Universitetinin İqtisadi coğrafiya fakültəsini bitirmişdi, torpağa yaxşı bələd idi, ona bağlılığı bu səbəblərlə yanaşı, həm də torpağı yaşatmaq eşqi ilə bağlı idi. O, əkin-biçinlə məşğul olmaq deyəndə bu prosesə həm də yeni yaranacaq əsəri kimi baxır və nəticə də məhz belə olur. Ömrünün on ayını keçirdiyi Beyləqandan geri qayıdanda əlində ona yalnız on ildən sonra qələmə aldığı "Son dayanacaqlardan biri" əsəri qalmışdı. Məmməd Oruc 2002-ci ildə 1992-ci ilin hekayətini yazdı, qayıdışının səbəbini oxucuya çatdırdı: "On aydan sonra Beyləqandan dönəndə məndən tez-tez soruşurdular: "Bəs niyə qayıtdın?" Bu yazı o sualın müfəssəl cavabıdır" (5, 87).

Məmməd Oruc Beyləqanda Haramı düzündə Yazıçılar Birliyi üçün "Turac" adlı təsərrüfat yaratmaq istəyəndə onu bu yoldan çəkindirmək istəyənlər də, dəstəkləyənlər də olur. Həyat yoldaşı onunla birlikdə getmək arzusunda olduğunu bildirir. Yeznə-qayınlıq münasibətindən əlavə, iyirmi ildən bəri tanıdığı, yollarda sınadığı, səmimiyyətinə içdən inandığı Fikrət Qocanın onunla həmrəy olması yazıçını daha da ruhlandırır: " –Düz deyirsən, – dedi,– şəhərdə əlini qoynuna qoyub oturmaqdansa, bir işdən yapışmaq, bir işə əl atmaq lazımdır" (5, 95) .

Sənədləşmə işlərində get-gələ salındıqda səbr nümayiş etdirir. Onu bezdirib fikrindən daşındırmaq istəyənlərə fürsət vermir, inadından dönmür. Səbəbini də bildirir: "Çünki o günlər mənə elə gəlirdi ki, daha mənim getməyə yerim yoxdu: bu son dayanacaqdı və mən bu dayanacaqda da sözümü deməliyəm" (5, 95).

İxtiyarına verilən, dayısı Oruc və onun həyat yoldaşı Rentanın köməyi ilə əkib-becərmək istədiyi on hektarlıq əraziyə dayısından fərqli olaraq sadəcə

bostan kimi baxmır, məkanı Azərbaycan Yazıçılar Birliyinin adıyla bağlı Yardımçı təsərrüfat kimi dəyərləndirir, məsuliyyətini dərk edir. Odur ki, dayısının bostanı bölmək təklifi ilə razılaşmır, nəticədə onlar tərəfindən tərk edilir, torpaqla baş-başa qalır. Çətinliklərlə qarşılaşsa da, məsuliyyət hissini itirmir, bura nə üçün gəldiyini, torpağın ona nə məqsədlə verildiyini yadından çıxarmır.

Torpaqla təmasda olarkən ona daha çox bağlanır, ilk cücərtilərini gördükdə həyatında bir yeni mənanın yarandığını hiss edir, qəlbindəki boşluqlar dolur. Beləliklə, onun həyat hekayəsinin müəyyən hissəsini özündə əks etdirən və on ildən sonra da olsa, qələmə alacağı əsəri üçün mövzu yaranır. Bu mövzunu ona verən də, yazıb-yaratmaq həvəsini gücləndirən də ümidi, son dayanacaqlardan biri kimi baxdığı torpaqdır. Vaxtını məhdudlaşdırıb yaradıcılıqdan yayındıran da torpaqdır. Müəllif etiraf edir ki, hekayə yazmağa həvəsi yaranır, lakin işlərinin çoxluğundan buna imkan tapmır.

Əsəri oxuyarkən insan təsvirlərdən təsirlənir, onda torpağa bağlılıq hissi güclənir, onun taleyini düşünür, qarşısında cavabdeh olduğunu duyur. Müəllif ürəkdən bağlı olduğu, sevib sevdirdiyi vətən torpağının − Şuşa, Laçın, Füzulinin işğalının acısını da yaşayır,əkin-biçinlə əsasını qoyduğu təsəttüfat Beyləqanla Füzulinin sərhəddində yerləşdiyindən gözlərinin şahidi olduqları ümidlərini puç edir, gündəlik qayğılarını unudur, vətən övladının itkisinin ağrısını yaşayır: “ Bakı ilə Füzulini, Cəbrayılı, Zəngilanı, Laçını birləşdirən magistral mənim əkin sahəmin tən ortasından keçirdi və bu magistralda son günlər yük, minik maşınlarından daha çox tank, top görürdüm. Bu tırtıllı tankların üstündə oturub gülə-gülə mənə əl eyləyən əsgərlərə, elə mən də gülə-gülə əl eyləyirdim. İçimdə isə qara qanlar axırdı. Tanımaza-bilməzə mənə tankın üstündən gülə-gülə əl eyləyən bu əsgərlərin kim bilir, neçəsinin bu yolla tabutu qayıdacaqdı” (5, 98).

Yəni bu an həmin yol onlardan hansılar üçünsə son dayanacaq olacaqdı. Müəllif hələ ömrünü yaşamamış, arzularının çiçək açdığını görməmiş son dayanacağına çatan, təravətli ikən solan insan həyatına yanırdı. Yanırdı, çünki o insan onun xalqının övladı , gələcəyi , ümidi , ən nəhayətdə, həyatın bir parçası idi. Yazıçı onun naminə bu mübarizə meydanına atılmışdı. O gənclər nicat yolunu tapdığı, həyatının mənası olan torpağın qoruyucuları idi.

Povest ideyası ilə bərabər, bədii xüsusiyyətləri, poetik dili ilə də diqqəti cəlb edir ki, bu da əsərin əsas məziyyətlərindəndir. Professor Təhsin Mütəllimov “Təsvir və təhkiyə ustalığı” adlı məqaləsində deyir: “ Hər bir sənətkarın müşahidə və təcrübəsi qələmə aldığı hadisə və surətləri təsəvvür etməsində əsas amil olur, bədii təxəyyül və fantaziyasını qidalandırır. Onun təsəvvürlərini təsvirə çevirməkdə isə söz ehtiyatı, ifadə imkanları və qələm səriştəsi əsasdır” (4, 8).

Məlum olduğu kimi, nəsr əsərlərində əsas üsul təhkiyə və təsvirdir. Bu tip əsərlərdə müəllif təhkiyəsi ilk sətirlərdən diqqəti özünə cəlb etməyi bacarırsa, bu maraq getdikcə artırsa, demək, yazıçı məqsədinə nail olub. Bunun üçün müəllif təhkiyəsinin oxucu tərəfindən qəbul edilməsi əsas məsələlərdən biridir.Yazıçı buna söz xəzinəsinin imkanlarından istifadə edərək nail olur. Sənədli

əsərlər tarixi hadisələri, reallığı əks etdirsə də, yazıçı qələmində cilalanır. Onun əfsanəvi söz aləminin sehrinə dalaraq yaratdığı gözəlliyin məhsulu olan bu əsərlər dil-üslub xüsusiyyətləri baxımından da tədqiqat üçün əhəmiyyətli mənbə sayılır.

M.Orucun “Son dayanacaqlardan biri” adlı sənədli povestində təhkiyənin uğurlu alınması əsərin dil-üslub xüsusiyyətləri ilə də bağlıdır. Fikrin müxtəsər, yığcam, lakonik ifadəsinə nail olmaq üçün xalq müdrikliyinin göstəricisi olan şifahi xalq ədəbiyyatı nümunələrinə, xüsusən də, atalar sözü və məsəllərə məqamında müraciət yazıçının dilinin xəlqiliyinin göstəricisidir. Məsələn: “Güvəndiyim dağlara da hər gün qar yağırdı” (5, 87), “ Eşşəyə minmək bir ayıb, düşmək iki ayıb” (5, 88), “ Lələ köçüb yurdu boş qalıb ” (5, 93), “ Su gələn arxa bir də gələr” (5, 126) vəs.

Bədii təsvir və ifadə vasitələri, xüsusilə, məcazlar-təşbeh, metafora, mübaliğələrdən məqamında istifadə əsərin dilinin bədii dəyərini artırır. Torpaq haqqında düşüncələrini bölüşərkən istifadə etdiyi müfəssəl bənzətmələr, metaforalar o qədər uğurlu alınıb ki, oxucu sanki həmin mənzərəni gözləri ilə gördüyünü təsəvvür etməkdə çətinlik çəkmir, onunla bərabər fərəhlənir: “Günbəgün yaşılını artıran torpaq isə, həqiqətən, üzümə gülürdü: mənim sevgimi duymuş və bu sevgidən bəxtiyar olmuş bir qız , qadın kimi gülürdü.” (5, 92).

Nümunədə torpağın gülməsi ifadəsi metafora, gülüşünün insan gülüşünə bənzədilməsi isə təşbehdir.

“Məcazların ən ibtidası bənzətmədir (təşbeh-oxşatma). Bənzətmədə dörd ünsür (söz) olur” (2, 85).

Əsərin dili müfəssəl bənzətmələrlə zəngindir. Nümunəyə diqqət yetirək: “Suyun layla kimi xəfif, həzin şırıltısı, yoxsa batmaqda olan günəşin üzümü-gözümü oxşayan, bu çölü bənzərsiz boyalarla boyayan bir topa şüası?” (5, 106). “Suyun layla kimi xəfif, həzin şırıltısı” ifadəsində müfəssəl bənzətmə üçün vacib olan dörd ünsür −bənzəyən, bənzədilən, bənzətmə qoşması, bənzətmə sifəti vardır. Burada su şırıltısı −bənzəyən, layla− bənzədilən, kimi−bənzətmə qoşması, xəfif, həzin sözləri isə bənzətmə sifətidir.

Fikrin davamına diqqət yetirək: “Yarpağın su səsinə boylandığını, sudan doyan kolun gözüm baxa-baxa dikəldiyini görəndə daha heyrətlənmirdim, sevinirdim” (5, 106). Bu cümlədə yarpağın su səsinə boylanması ifadəsi isə metaforadır.

“Yazın qəfildən başlayan və bir neçə gün yeri-göyü yandıran istilərindən sonra göy üzünü elə bir bulud aldı ki, gecənin bir vədəsi elə bir yağış başladı ki, elə bil sel-su bu saat dünyanı yuyub aparacaqdı” (5, 93). Mübaliğədən istifadə edilmiş bu təsvir vasitəsilə təzadlı təbiət hadisələri tam dolğun şəkildə gözlərimiz qarşısında canlanır. Bu hadisənin insan, onun yaratdıqları üçün də nəticəsi ziddiyyətli olur. Müəllifin qeyd etdiyi kimi: “Yoncalıq da, bostan da, əslində, bu yağışdan sonra cana gəldilər, amma soğanlığı da bu yağışdan sonra alaq basdı” (5, 93).

Torpağa bağlılıq, təbiətə qayğıkeş münasibət, onun duymaq, insanla bərabər, ona da xüsusi önəm verə bilmək yazıçı qələminin ustalığından əvvəl, hissiyyatının, diqqətinin göstəricisidir və sənətkar yaradıcılığında surət, tablo, mənzərə, bədii lövhələr, onları təşkil edən komponentlərin hamısını maksimum şəkildə nəzərə almışdır: "Məsələyə bu müstəvidən yanaşdıqda, milli müstəqillik dövrünün nəsr əsərlərində yazıçılar bəzən daha çox faktlara aludə olmuşlar, baş vermişlərə diqqət yetirərək, beləliklə də, sənədliliyə birtərəfli uyaraq, sənətin bədiiliyinə, ümumiləşdirməyə ikinci dərəcəli şey kimi baxmışlar" (3, 447).

Nümunələrdən göründüyü kimi, "Son dayanacaqlardan biri" sənədli povesti isə iradların ünvanlandığı əsərlərdən deyil. Bu əsər yalnız yaxın keçmişi əks etdirməklə, dil-üslub xüsusiyyətləri ilə deyil, bir çox məziyyətləri ilə diqqət cəlb edir ki, bu da sonrakı tədqiqatların mövzusudur.

## ƏDƏBİYYAT


1. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. Bakı: Ayna Mətbu Evi, 2001, 507 s.
2. Mir Cəlal, Xəlilov P.İ. Ədəbiyyatşünaslığın əsasları. – Ali məktəblər üçün dərslik. Yenidən işlənmiş və təkmilləşdirilmiş II nəşri. Bakı: Maarif, 1988, 280s.
3. Müasir Azərbaycan ədəbiyyatı: Dərslik. 2 cilddə. II c. Bakı: BDU, 2007, 562 s.
4. Mütəllimov T. Sənət qayğıları. Bakı: Yazıçı, 1981,197 s.
5. Oruc Məmməd. Son dayanacaqlardan biri / "Azərbaycan" jurnalı, 2002, № 2, s. 87- 127
6. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Proqres, 2012, 233 s.
7. www. istoriya az/about/…/ memmed. Pdf


## ИДЕЯ, ОСОБЕННОСТИ ЯЗЫКА И СТИЛИСТИКА В ДОКУМЕНТАЛЬНОЙ ПРОЗЕ (НА ОСНОВЕ ПРОИЗВЕДЕНИЯ МАМЕД ОРУДЖА «ОДИН ИЗ ПОСЛЕДНИХ ЭТАПОВ ЖИЗНИ»)


**И.С.ДАДАШОВА**


## РЕЗЮМЕ


В данной статье подверглась исследованию документальная повесть М. Оруджа «Один из последних этапов жизни», написанная в независимый период азербайджанской литературы. В статье автор поделился историей своей жизни, ссылаясь на конкретные факты, и его верность к истории позволила нам использовать это произведение как источник. Наряду с отражением панорамы того периода, в определенной степени, идея призыва человека осознатъ свою ответственность, а также особенности языка и стилистики – всё это дает нам основание для исследования данного произведения. Привязанность автора к земле помогает раскрыть идею произведения, а его ответственность - характер произведения.



**Ключевые слова:** человек, борьба, земля, язык, искренность, стиль

**THE IDEA, STYLISTICS AND LANGUAGE PECULIARITIES IN NON-FICTION PROSE (BASED ON THE WORK "ONE OF LAST STOPS" BY MAMMAD ORUJ)**

**İ.S.DADASHOVA**

**SUMMARY**

The article deals with the specific features of the documentary prosaic samples of the Azerbaijani literature during the period of independence. The author refers to specific facts while sharing his life story, while his loyalty to history gives us the ground to use it as a source. The idea calling for perfection, high artistic features, alongside with the historical study of the past, remembrance of yesterday and the reflection of the panorama of that period give us grounds to investigate this book. The author's true love towards the Earth helps discover the sense of the work, while his responsibility opens the nature of the work.

**Key words:** man, fight, land, sincerity, language, style